# Gəncə Teatrı tamaşaçı və istilik problemi ilə üz-üzə...

## **İradə Gözəlova:** *"Xarici rejissorun bizdə tamaşa hazırlaması teatrlarımız üçün çox səmərəli olar"*



■ Xəyalə Rəis
*teatrşünas*

Teatr yeniliyi, təravətliliyi sevir. Sevindirici haldır ki, bu gün teatrlarda yeni ideyaları, eləcə də düşüncə tərzi ilə seçilən gənc, istedadlı rejissor və aktyorlarımız az deyil. Onlardan biri də gəncliyinə baxmayaraq kifayət qədər təcrübəsi olan, paytaxtda, eləcə də bölgə teatrlarında biri-birindən maraqlı tamaşalar hazırlayan Gəncə Dövlət Dram Teatrının baş rejissoru İradə Gözəlovadır.

Gəncə teatrının gənc rejissoru bizimlə söhbətində teatrın gələcək planlarından, indiki vəziyyətindən danışdı. Vaqif İbrahimoğlunun yetirməsi olan və xaricdə təhsil görmüş bu gənc xanımla söhbətimizdən aydın oldu ki...

**-İradə xanım, hazırda Gəncə Dövlət Dram Teatrında hansı proseslər gedir?**

-Bilirsiniz ki, bu il ölkəmizdə yeni teatr mövsümü Gəncə Dövlət Dram Teatrında açıldı. Sevindirici məqamlardan biri də o oldu ki, mövsümü Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" adlı əsəri əsasında mənim quruluş verdiyim tamaşa ilə açdıq. Teatrın 143-cü mövsümündə cəmiyyətimizin ziyalıları, teatrlar xadimləri, Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev, Gəncə İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyev də iştirak edirdi. Cənab nazirimiz tamaşa haqqında çox gözəl rəy bildirdi.

Hazırda isə teatrımızda Şəfayət Mehdiyevin "Sabir" adlı pyesinin üzərində çalışıram. Onu da ilin axırına qədər təhvil verməliyəm. Çox istəyirəm ki, burada Hüseyn Cavidin "İblis" əsərinə quruluş verim. Teatrın növbəti il üçün planını da artıq Mədəniyyət və Turizm Nazirliyinə təklif etmişik. Hələ ki, təstiq etməyiblər. Teatrımızın repertuarının daha da rəngarəng olması üçün istəyirik ki, Ukraynadan rejissor çağıraq. Bu barədə Mədəniyyət və Turizm Nazirliyinə də müraciət etmişik. İstəyirik ki, ukraynalı rejissor bizim teatrda U.Şekspirin "Şıltaq qızın yumşalması" tamaşasını hazırlasın. Nazirlikdən bizə müsbət cavab gələn kimi yəqin ki, fəlaiyyətə başlayacağıq.

**- Siz İjevsk şəhərində "Şıltaq qızın yumşalması" tamaşasını hazırlamışdınız və xaricilər tərəfindən bu tamaşa gözəl qarşılanmışdı. Hətta bu tamaşaya görə mükafat da almışdınız. Bəs nə üçün bu tamaşanı əcnəbi rejissora həvalə edirsiniz?**

-Məsələ siz düşündüyünüz kimi deyil. Hesab edirəm ki, ukraynalı rejissor gəlib burada tamaşa hazırlasa, bu, iki ölkə teatrı arasında bir körpü rolunu oynayacaq. Belə olan halda həmin rejissorun çalışdığı Kiyev Dövlət Teatrı ilə də münasibətlərimiz yaranacaq. Biz də onlarla əməkdaşlıq edərik, buradan ora tamaşalarımızı apara bilərik. Məhz bu münasibət əsnasında Ukrayna teatrları ilə sıx əməkdaşlıq qurmaq olar. Xarici rejissorun teatrımızda tamaşa hazırlaması istənilən baxımdan bizim üçün çox səmərəlidir. Əməkdaşlıq etmək çox yaxşıdır. Həmin rejissor da Kiyevdə tanınmış insandır. Cavan kadrdır. Moskvada mənimlə birlikdə oxuyub və mən onun istedadına bələdəm.

**- İjevskdəki uğurunuzdan sonra həmin teatrla əməkdaşlığınız davam edirmi?**

-Bəli, həmin kollektivdən yenə təkliflər almışam. İndi işim elədir ki, vətəndən kənara çıxa bilmirəm. Çünki teatrda işlərim həddindən artıq çoxdur. Hələ ki, danışıqlar gedir. Ortada dəqiq bir şey yoxdur. Qeyd edim ki, bu yaxınlarda onların yubileyi keçiriləcək. Ancaq böyük ehtimalla, gedə bilməyəcəm.

**- Paytaxt teatralarında bir sıra maraqlı tamaşalar qoymusunuz. Bəs, bölgə teatrında çalışmağın hansı özəllikləri var?**

- Bölgə teatrında işləmək həddindən artıq çətindir. Amma yenə də rejissor üçün bölgə teatrında işləmək bir məktəbdir. Hazırda Gəncə teatrında tamaşaçı tərəfdən qıtlıq çəkirik. İndi biz komanda yığmışıq, onlarla birlikdə reklam işəri ilə məşğul olmağa çalışırıq. Gəncə tamaşaçıları arasında təbliğat işləri ilə məşğuluq və təbliğatımızın da nəticəsini görürük, son zamanlar bilet satışında irəliləyiş müşahidə olunur. Artıq 8-10 nəfər də olsa gəlib bilet alır. Boş dayanmırıq, çalışıq. Amma sözün düzünü deyim ki, burada işləmək heç də asan deyil. Mən bu teatra nazirlik tərəfindən təyin edilmişəm. Yaradıcılığımı burada həyata keçirirəm.

**- Qeyd etdiniz ki, reklam işləri ilə məşğul olursunuz. Maraqlıdır, bölgə teatrında reklamın hansı qolundan yararlanırsınız?**

- Texnologiyanın yüksək səviyyədə inkişaf etdiyi dövrdə yaşayırıq. Bundan yararlanıb, sosial şəbəkələrdə tamaşalarımızı yayımlayırıq. Şükürlər olsun, hər birimizin kifayət qədər böyük çevrəmiz var. Hələ ki, tamaşaçıları bu üsulla teatra cəlb edirik. Bundan başqa müxtəlif yerlərdə afişalarımızı asırıq ki, bu da reklamın bir növüdür. Artıq teatrımızın direktoru Əli müəllimlə də razılaşmışıq ki, televiziya vasitəsi ilə tamaşalarımızı reklam edək. Tamaşalarımızın reklamını daha da genişləndirmək istəyirik.

**- Tamaşaçı problemindən başqa teatrda hansı çətinliklərlə üzləşirsiniz?**

- Teatrımızın əsas problemi istilik sistemi ilə bağlıdır. Məhz bu səbədən qışda teatra tamaşaçı gətirmək o qədər də asan deyil. Çünki tamaşaçı zalda yarım saat oturduqdan sonra üşüməyə başlayır. Bölgə teatrlarının özünəməxsus problemləri var. Teatr köhnədir, nə istilik sistemi var, nə də sərinləşdiricisi.

**- İradə xanım, bölgə teatrlarında hər zaman gənc aktyor, aktrisa problemi yaşanıb. Bəs, Gəncə teatrında necə, belə problemlə üzləşirsinizmi?**

- Xeyr. Hazırda teatra kifayət qədər axın var. Bildiyiniz kimi, teatrımızın nəzdində studiyamız da fəaliyyət göstərir. Gənc kadrlarımızı həmin studiyada yetişdiririk və sonda işlə təmin edirik. Onların içərisindən ən istedadlılarını artıq seçmişik. Gənc kadrlarımızla bərabər hazırda teatrımıza Elnur Axundov adlı maraqlı rəssam gəlib. Onu teatra mən dəvət etmişəm. Çünki həddən ziyadə istedadlı, yüksək intellekt səviyyəsi var. Bizim "Dəli yığıncağı" tamaşamızın eskizlərini o işləmişdi. Teatr mövsümünün açılışında nazir müavini Ədalət Vəliyev də onun eskizlərini gördü və çox yüksək qiymətləndirdi. Mövsümün açılışında biz onun eskizlərini nümunə kimi təqdim etmişdik. Açılışa Azərbaycan teatrlarının bütün direktorları gəlmişdi və onlar da bu eskizlərə baxıb, bəyəndilər. Belə çalışqan insanlarla işləmək insana zövq verir. Elnur peşəkarlığı ilə məni tam olaraq qane edir, hərtəfli insandır. Ümumiyyətlə, Gəncədə öz həmfikrimi tapmaqda çox çətinlik çəkirəm. Məhz bu baxımdan, onunla həmfikir olduğum üçün özümü şanslı hesab edirəm.

**- Çalışdığınız teatrda gənclərə qarşı münasibət necədir?**

- Söhbət məndən gedirsə, hələ ki, burada yaradıcı kollektivlə heç bir problemim yoxdur. Kollektivlə normal münasibətdəyəm. Bu baxımdan heç bir çətinliklə də üzləşmirəm. Ancaq ümumi anlamda mənə bölgə teatrında işləmək çətin gəlir.

**- Nə baxımdan?**

- Bölgə teatrlarındakı şərait hər kəsə bəllidir. Burada özümlə həmfikir tapmaqda çətinlik çəkirəm. Buna görə də darıxıram. Düzdür, kollektivdə maraqlı aktyorlar olsa da, insan yenə də darıxır. Çətinliklərim barədə çox danışmaq istəmirəm. Ümumilikdə onu deyə bilərəm ki, bölgə teatrında çalışmaq çətindir.

**- Paytax teatrları üçün darıxırsınız?**

- Təbii ki. Mən bakılıyam, Bakıda doğulmuşam. Bilirəm ki, buraya müvəqqəti olaraq gəlmişəm. Təsəvvür edin ki, mən Gəncədə təkəm. Nə yaxınlarım, nə də dostlarım yanımdadır. Tək qalmaq mənim üçün çətindir. Paytaxt üçün darıxıram. Paytaxt teatrları ilə iş birliyi etmək istəyirəm. Ola bilsin ki, bir teatr ilə yeni bir layihə işlədim. Burada da iş həddindən artıq çoxdur. Zamanla onları da yoluna qoymağa çalışacağam.

**- Sizi Vaqif İbahimoğlunun yetirməsi kimi tanıyırıq.**

- Bəli. Vaqif müəllimdən əlavə mən həm də Moskvada təhsil almışam. Orada müəllimim Vladimir Fokin olub. Ondan da çox şey öyrənmişəm. Mərhum sənətkarımız Vaqif müəllimdən gənc olanda çox şey öyrəndim. Allah ona rəhmət eləsin. Fokindən isə daha qlobal biliklər əldə etdim. Belə deyə bilərəm ki, mənim iki müəllimim olub.

**- Yuğ teatrında psixosof yönlü tamaşa qurmağı necə, düşünürsünüzmü?**

- Psixosof yönümlü yox. V.İbrahimoğlunun poetikasını gözəl bilmirəm. Onun bir çox tələbəsi yolunu davam etdirir. Mən qorxuram. Özümə başqa yol seçmişəm. Düzdür, onun poetikasından çox faydalandım. Yenə də fikirləşirəm ki, birdən alınmaz. İndi Yuğ teatrının poetikasında yox, məhz öz fantaziyama uyğun hərəkət edirəm. Tamaşalarım bir istiqamətdədir. Onlardan əlavə, mən Teatr Xadimlər İttifaqının sədri Azərpaşa Nemətovun da tələbəsi olmuşam. O, birinci və ikinci kursda mənə dərs deyib. Ondan da çox şey öyrənmişəm. Oxuduğum dünyəvi kitablardan da faydalanaraq özümə uyğun yol seçmişəm. Bir poetika üzərində dayanmamışam.

**- Əlində olsaydı, necə bir əsər səhnləşdirərdin?**

- İndi burada elədir ki, çox vaxt öz istədiyim tamaşaları qururam. Misal üçün, "Dəli yığıncağı", "Evlənmə" tamaşalarını öz təklifimlə hazırladım. Musiqili Teatrda "Kimdir müqəssir" tamaşasına quruluş verdim. Çox vaxt öz təklifim olur. İndi də Hüseyn Cavidin "İblis" tamaşasını hazırlamaq istəyirəm. Çoxdandır arzulayıram ki, Çexovun pyeslərini işləyim. Çünki Azərbaycan dramaturgiyasına çox müraciət etmişəm. İndi də Şekspir, Çexov və digər dünya dramaturqlarına müraciət etmək istəyirəm. Çexovun "Vanya dayı" tamaşasına quruluş vermək istərdim. Allah qismət etsə, onu mütləq səhnələşdirəcəm.

